## Əməkdaşlıq fəaliyyətləri

- 2026-cı il 22-23 iyul – Agentliyin nümayəndələri Rosselxoznadzorun tabeliyində fəaliyyət göstərən Ümumrusiya Heyvan Sağlamlığının Mühafizəsi Elmi-Tədqiqat İnstitutunda (VNİİZJ) təcrübə mübadiləsi aparmış, habelə baytarlıq vaksinlərinin istehsalı ilə məşğul olan müəssisəyə səfər etmişdir.
- Rosselxoznadzor-un nümayəndələri ilə virtual görüş keçirilmiş, qida məhsullarının qarşılıqlı tədarükü, idxal-ixrac məsələlərinin tənzimlənməsi müzakirə olunmuşdur.
- 2026-cı il 14 iyul – Rosselxoznadzor-un nümayəndələri ilə virtual görüş keçirilmiş, qida məhsullarının qarşılıqlı tədarükü, idxal-ixrac məsələlərinin tənzimlənməsi müzakirə olunmuşdur.
- 2026-cı il 13–15 may - Agentlik sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiya Federasiyasına işgüzar səfəri həyata keçirilmişdir. 14 may tarixində Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin rəhbəri Sergey Dankvert ilə keçirilmiş görüşdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət sahələrində əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, ixrac prosedurlarının sadələşdirilməsi, rəqəmsal inteqrasiya, AQTİS və Argus-Fito informasiya sistemlərinin inteqrasiyası, eləcə də baytarlıq sahəsində rəqəmsal həllərin tətbiqi üzrə razılıqlar əldə edilmişdir.
- 2026-cı il 25–29 may - Rosselxoznadzor, Rusiya Elmlər Akademiyası və “Ümumrusiya Bitki Karantini Mərkəzi” (VNIIKR) tərəfindən keçirilmiş “İnvaziv növlər bioloji təhlükəsizliyə potensial təhdid kimi: çağırışlar və risklər” mövzusunda beynəlxalq elmi-praktik konfransda AQTA-nın nümayəndələri iştirak etmişdir.
- 2026-cı il 6 mart - Agentlik ilə “Rosselxoznadzor” nümayəndələri arasında keçirilən virtual görüşdə AQTİS və “Argus-Fito” sistemlərinin inteqrasiyası məsələləri müzakirə edilmiş, AQTİS-in fitosanitar modulu üzrə təqdimat keçirilmişdir. Bunun davamı olaraq, Rosselxoznadzor nümayəndə heyətinin 8–10 aprel tarixlərində ölkəmizə səfəri təşkil edilmiş, E-Phyto sistemi üzrə ölkəmizin təcrübəsi təqdim olunmuş və rəqəmsal fitosanitar nəzarət sahəsində qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır.
- 2026-cı il 22 yanvar - Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin nümayəndələri ilə keçirilən virtual görüşdə Azərbaycan Qida Təhlükəsizliyi İnformasiya Sistemi (AQTİS) ilə Rusiyanın VETİS informasiya sistemi arasında inteqrasiya imkanları nəzərdən keçirilmiş, məlumat mübadiləsinin əhəmiyyəti vurğulanmışdır.
- 2025-ci il 18-21 iyun – AQTA sədrinin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfəri olmuş, Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun Plenar iclasında, eləcə də “Azərbaycan-Rusiya” biznes dialoqunda iştirak etmiş, Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin rəhbəri ilə görüş keçirmişdir.
- 16-19 aprel 2025 – Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun nümayəndə heyətinin Moskva şəhərində VGNKİ-nin vivariumuna və balıq bazarına səfəri təşkil olunmuşdur.

- 7-11 aprel 2025 – Agentliyin nümayəndəsi Rusiya Federasiyasına səfər etmiş, canlı heyvanların ixrac olunduğu karantin meydançalarında yerində yoxlamalar aparmışdır.
- 11 fevral 2025 – Rosselxoznadzorun tabeliyindəki VGNKİ-nin direktor müavini Azərbaycan Qida Təhlükəsizliyi İnstitutuna (AQTI) səfər etmiş, monitorinq, laborator mübadilə, ştammlar və risk qiymətləndirmələri üzrə müzakirələr aparılmışdır.
- 11 dekabr 2024 – Rosselxoznadzor tərəfindən təşkil edilən "Bitkilərin bioloji mühafizəsi" mövzusunda virtual Dəyirmi masada iştirak edilmişdir.
- 9 oktyabr 2024 – "Zolotaya osen" 26-cı Rusiya aqrar-sənaye sərgisi çərçivəsində "Bioloji və kimyəvi bitki mühafizəsi vasitələri" mövzusunda virtual formatda keçirilmiş Dəyirmi masada iştirak olunmuşdur.
- 14–15 oktyabr 2024 – AQTA nümayəndə heyəti Moskva şəhərinə səfər etmiş, Rusiya-Azərbaycan Dəyirmi Masasında iştirak etmişdir. Tədbirdə qida təhlükəsizliyi sistemi, risklərin idarə olunması və laborator testlərin əhəmiyyəti mövzusunda təqdimatlar edilmişdir. Səfər zamanı F.F.Erisman adına Federal Elmi Gigiyena Mərkəzi, Rosselxoznadzorun tabeçiliyindəki laboratoriyalar və vivariumlar ziyarət olunmuş, onların fəaliyyəti ilə yerində tanışlıq aparılmışdır.
- 25 sentyabr 2024 – Bakı şəhərində keçirilən "Rusiya-Azərbaycan: Kənd təsərrüfatı məhsullarının ticarəti sahəsində qarşılıqlı faydalı əməkdaşlıq" mövzusunda plenar sessiyada AQTA nümayəndələri iştirak etmiş və fikir mübadiləsi aparmışlar.
- 21-22 may 2024 – VNİİKR-in nümayəndə heyətinin tarixlərində keçirilmiş Bitki Sağlamlığı Formunda iştirakı təmin olunmuşdur. Bakıya səfər zamanı nümayəndə heyətinin AQTİ laboratoriyalarına səfəri baş tutmuşdur.
- 10–12 iyul 2024 – AQTA sədrinin rəhbərliyi ilə Rusiya Federasiyasına işgüzar səfər həyata keçirilmişdir. Rosselxoznadzor nümayəndələri ilə görüşdə baytarlıq və fitosanitar nəzarət, karantin meydançaları, heyvan rifahı, sərhəd nəzarəti və ixrac-idxal prosedurları müzakirə olunmuşdur.
- 15–18 noyabr 2023 – Rosselxoznadzor rəhbəri S.Dankvertin Azərbaycana səfəri baş tutmuş, yüksək səviyyəli görüşlər keçirilmiş, əməkdaşlıq protokolu imzalanmış, AQTİ-yə səfər həyata keçirilmişdir.
- 7 noyabr 2023 – VNİİZJ ilə görüş keçirilmiş, vəhşi heyvanların peyvəndlənməsi və vaksinlərin qeydiyyata alınması məsələləri müzakirə olunmuşdur.
- 6–8 noyabr 2023 – AQTA nümayəndələri Rusiyaya səfər etmiş, baytarlıq nəzarəti və informasiya sistemləri ilə tanış olmuşdur.
- 4–7 oktyabr 2023 – Agentlik sədrinin rəhbərliyi ilə nümayəndə heyəti Moskvada keçirilmiş "Qızıl Payız-2023" sərgisində iştirak etmiş, müxtəlif elmi müəssisələrə səfərlər təşkil olunmuş, yüksək səviyyəli görüşlər keçirilmişdir.
- 27 aprel 2023 – AQTA sədrinin Rosselxoznadzor rəhbəri ilə danışıqlar keçirilmiş, idxal-ixrac nəzarəti, laborator müayinələr və ixracatçı/idxalçı şirkətlərin məhsullarına dair məsələlər müzakirə olunmuşdur.

- 25–27 yanvar 2023 – Agentliyin mütəxəssislərindən ibarət nümayəndə heyəti Rusiya Federasiyasına təcrübə səfəri etmiş, Rosselxoznadzorun üç aparıcı elmi mərkəzində görüşlər keçirilmişdir.
- 20–22 dekabr 2022 – Agentlik sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin Rusiya Federasiyasına səfəri həyata keçirilmiş, gələcək əməkdaşlıq istiqamətləri üzrə ilkin razılıqlar əldə olunmuşdur.